Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Böyük ədibin böyük yaradıcılığı

**Əbdürrəhim bəy Haqverdiyevin 150 illiyi ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı 2020**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Böyük ədibin böyük yaradıcılığı:** Əbdürrəhim bəy Haqverdiyevin 150 illik yubileyi ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası ; tərt.ed. A.Əliyeva; ixt.red. və burax.məsul Ş. Qəmbərova ; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2020. - 43 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2020**

## Giriş

*Hər bir yazıçının, fikir adamının yazdığı, nəşr etdiyi, hətta oxuduğu kitablardan əlavə, sonadək yazılmamış ömür kitabı da olur və həmin kitab axıra qədər yazılmadığı kimi, heç vaxt axıra qədər oxunmur...*

*Məti Osmanoğlu*

XX yüzilin əvvəllərindən başlayaraq maarif və mədəniyyət sahəsində ciddi canlanma əmələ gəldi: bir sıra maarif ocaqları, xeyriyyə cəmiyyətləri, nəşriyyatlar, kitabxanalar yaradıldı. Milli dilin, milli ədəbiyyatın tədris olunduğu məktəblərin, xüsusilə qız məktəblərinin sayı artdı. Belə bir xeyirxah və nəcib işə müəllimlər, ictimai xadimlər və mətbuat ətrafına toplaşan ziyalılar yaxından kömək edir, əllərindən gələni əsirgəmirdilər. Bu sahədə N.Nərimanov, C.Məmmədquluzadə, M.Ə.Sabir, A.Şaiq, Ü.Hacıbəyov, S.S.Axundov, R.B.Əfəndiyev, A.Səhhət, M.Mahmudbəyov və s. kimi müəllim və yazıçıların unudulmaz xidmətləri olmuşdur. Bu tərəqqipərvər ictimai xadimlərin fəaliyyət dairəsi çoxcəhətli idi. Onlar bədii yaradıcılıqla yanaşı müəllimlik edir, dərslik, dərs vəsaitləri və proqramlar hazırlayır, dövri mətbuatda fəal iştirak edir, teatr tamaşaları hazırlayır, aktyor və rejissor kimi də işləyir, maarif, mədəniyyət və incəsənətin bütün sahələrində böyük fədakarlıq göstərirdilər. Belə maarifçilərimizdən biri də Azərbaycan realist və demokratik ədəbiyyatının görkəmli nümayəndələrindən Əbdürrəhim bəy Haqverdiyevdir. XIX əsrin son illərindən ədəbiyyat aləminə qədəm qoymuş Haqverdiyev dolğun məzmunlu dram əsərləri, yumorist-satirik hekayələri ilə şöhrətlənmiş, həm də ictimai xadim kimi realist ədəbiyyatımızın və sənətimizin inkişafında mühüm rol oynamışdır.

Bütün fəaliyyəti, bədii yaradıcılığı doğma xalqına əvəzsiz xidmət, vurğunluq nümunəsi olan qaynar təbli ədibimiz, Əbdürrəhim bəy Haqverdiyevin keçdiyi həyat yolunu oxuculara çatdırmaq məqsədilə və eyni zamanda böyük ədibin 150 illik yubileyi münasibətilə bu vəsaiti yazmağı özümüzə borc bildik.

## Həyat yaradıcılığı

Əbdürrəhim bəy Haqverdiyev 1870-ci il mayın 17-də Azərbaycanın Şuşa şəhəri yaxınlığında olan Ağbulaq kəndində anadan olmuşdur. İbtidai təhsilini 1880-ci ildə Şuşada Yusif bəyin müvəqqəti yay məktəbində, sonra Şuşa realnı məktəbində almışdır (1881-1890). Tiflis realnı məktəbini bitirəndən sonra Peterburq Yol Mühəndisləri İnstitutunda təhsil almışdır (1891-1899). Tələbəlik dövri azad müdavim sifət ilə universitetin şərq fakültəsinin dinləyicisi olmuşdur. Onda ədəbiyyata güclü meyil oyanmışdır. Əbdürrəhim bəy Haqverdiyev ədəbi fəaliyyətə Şuşa real məktəbində oxuduğu zaman başlamış, M.F. Axundzadənin təsiri ilə "Hacı Daşdəmir" adlı kiçik bir pyes yazmışdı. Peterburqda təhsil alarkən onun bədii yaradıcılığa meyl və həvəsi daha da çoxalır. "Yeyərsən qaz ətini, görərsən ləzzətini" (1892) və "Dağılan tifaq" (1896) əsərlərini yazmışdır. "Dağılan tifaq" (1899) Peterburqda nəşr edilmişdir.

Ali təhsil alıb Şuşaya qayıtmış, burada tamaşalar təşkil etmişdir. Bakıda onun rəhbərliyi ilə Şərq konsertləri verilmişdir (1902-1903). Burada ilk hekayələrini ("Ata və oğul", "Ayın şahidliyi") yazıb "İki hekayət" adı ilə çap etdirmişdir. 1905-ci il inqilabından sonra Rusiya Dövlət Dumasına Gəncə quberniyasından nümayəndə seçilmiş, Peterburqa getmişdir (Azərbaycanın birinci diplomatlarından hesab olunur), burada dövlət kitabxanasında yeni əsərinə (Ağa Məhəmməd şah Qaçar) materiallar toplamış, İrana – Mazandaran vilayətinə səyahət etmişdir (1907). "Leyli və Məcnun" operası 1908-ci il yanvarın 12-də tamaşaya qoyulduğu zaman ilk Azərbaycan dirijoru kimi xor və orkestri, tamaşanı idarə etmişdir. "Nicat" cəmiyyətində və Kür-Xəzər gəmiçiliyi idarəsində işlədiyi dövrdə Zaqafqaziyanı, Dağıstanı, Orta Asiyanı və Volqaboyunu səyahət etmiş, "Ceyranəli", "Xortdan", "Həkimi-nuni-səqir", "Lağlağı",

“Mozalan”, “Süpürgəsaqqal” və s. imzalarla “Molla Nəsrəddin” jurnalında hekayə, felyeton çap etdirmişdir.

Həştərxanda yaşadığı müddətdə şəhərin mədəni-ictimai həyatında ciddi çalışmışdır (1910). Sonra Ağdama köçüb orada yaşamışdır (1911-1915). Tiflisdə “Şəhərlər ittifaqının Qafqaz şöbəsi xəbərləri” adlı aylıq məcmuənin müdiri olmuş (1916-1917), fevral inqilabından sonra Tiflis İcraiyyə Komitəsinə və onun mərkəzi şurasına üzv seçilmişdir (1917). Həmin ilin martında Borçalı qəzasına müvəkkil təyin olunmuşdur (1918).

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra dövlət teatrlarına müfəttiş təyin olunmuşdur. Azərbaycan milli teatrının yaranmasının 50 illiyi münasibəti ilə keçirilən yubileyə başçılıq etmişdir. Azərbaycan Dövlət Universitetində ədəbiyyatdan mühazirələr oxumuş, elmi kadrların hazırlanmasında iştirak etmişdir. Burada yerli komitənin sədri (1922), Azərbaycanı tədqiq və təbliğ cəmiyyətinin sədr müavini və sonra sədri (1923-1925) olmuşdur. Bu, ilk elmi-tədqiqat müəssisəsi idi. Bakıda çağırılan birinci Azərbaycan ölkəşünaslıq qurultayının nümayəndəsi kimi fəal çalışmışdır (1924).

Bunlardan başqa ədib Şekspirin “Hamlet”, Şillerin “Qaçaqlar”, Volterin “Soltan Osman”, Zolyanın “Qazmaçılar”, Andersenin “Bülbül”, “Şahın təzə libası”, Lanskoyun “Qəzəvat”, Çirikovun “Yəhudilər”, Korolenkonun “Qoca zəng çalan” əsərlərini də tərcümə etmişdir.

Rusiya Elmlər Akademiyasının nəzdində olan ölkəşünaslıq bürosunun beşinci elmi sessiyasında yekdilliklə akademiyanın ölkəşünaslıq bürosuna müxbir üzv seçilmişdir (1924). Şərq fakültəsinin katibi (1922-1925), Azərbaycan Yazıçılar İttifaqının məsul katibi (1931-1932) olmuşdur. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin Fəxri Fərmanına layiq görülmüşdür (1933). Onun əsərləri SSRİ və xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur.

1899-cu ildə Azərbaycana qayıdan Haqverdiyev bir müddət Bakıda yaşayıb. O, bir tərəfdən müəllimliklə məşğul olub, digər tərəfdən teatrlarda verilən tamaşalara rejissorluq edib. Eyni zamanda bədii yaradıcılığını da davam etdirib: “Bəxtsiz cavan” (1900) və “Pəri-cadu” (1901) faciələrini yazmaqla milli dramaturgiyanı ideya və poetik-sənətkarlıq baxımından daha da zənginləşdirib. 1906-cı ildə “Həyat” qəzetində hekayələr və “Molla Nəsrəddin” jurnalında gizli imzalarla felyetonlar, məzhəkələr çap etdirib. “Marallarım”, “Xortdanın cəhənnəm məktubları”, “Şeyx Şaban”, “Xəyalət”, “Ac həriflər” və sair əsərlərin müəllifidir.

1933-cü il dekabrın 17-də Bakıda vəfat etmiş, Fəxri xiyabanda dəfn olunmuşdur. Adına Bakı şəhərinin Yasamal rayonunda küçə var.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Əbdürrəhim bəy Haqverdiyev Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir.

## Yubiley tədbirlərinin keçirilməsi

Tanınmış ədib, nasir, yazıçı, dramaturq, pedaqoq, ədəbiyyatşünas və naşir Əbdürrəhim bəy Haqverdiyevin anadan olmasının 150 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər: kitab müzakirəsi, oxucu konfransı, rəsm müsabiqəsi, icmal, dəyirmi masa, ədəbi-bədii gecə və s. keçirilə bilər. Yazıçını sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə tanıtmaq məqsədilə kitabxanada kitab sərgisi təşkil olunmalıdır. Sərgiyə müxtəlif başlıqlar verilə bilər: “Anadangəlmə mollanəsrəddinçi”, “Realist sənətkar”, “Əbdürrəhim bəy Haqverdiyev və folklor”, “Əbdürrəhim bəy Haqverdiyev və Tiflis Azərbaycan teatrı”, “Ədəbi-irfani Bəy…”, “Yaradıcılığı min rəngə boyanan insan”, “Vətən torpağına könlü

vətən olan ədib”, “Bir qəlbin asimanı”, “Əbdürrəhim bəy Haqverdiyev – Müəllim”, “Əbdürrəhim bəy Haqverdiyev – 150”, “Böyük ədibin böyük yaradıcılığı”, “Ədəbi irsə bağlılıq” və s.





















***Görkəmli şəxsiyyətlər Əbdürrəhim bəy Haqverdiyev haqqında***

Əbdürrəhim bəy Haqverdiyev hər şeydən qabaq "Molla Nəsrəddin" məcmuəsinin ibtidasından …məcmuənin ən yaxın əməkdaşlarından və məsləhətçilərindən hesab olunur. Qoca əməkdaşlarımızın bu günlərdə tehiyyə olunan yubileyini "Molla Nəsrəddin" məcmuəsi idarəsi öz bayramı kimi alqışlayacaqdır.

**Cəlil Məmmədquluzadə,**
*Azərbaycan yazıçısı, dramaturq*

Ruhən xalqa yaxın, xalq həyatını, məişətini dərindən bilən Əbdürrəhim bəy Haqverdiyev bütün hekayə və dramlarında, publisist yazılarında şifahi xalq yaradıcılığından, onun müxtəlif məna çalarlarından bol-bol istifadə etmişdir.

**Nizami Xəlilov,**
*filologiya elmləri doktoru, professor*

Əbdürrəhim bəy Haqverdiyev xalqını böyük məhəbbətlə sevən, onun övladlarını daim tərəqqidə görmək istəyən alovlu vətənpərvər yazıçı və ictimai xadim idi.

**Nadir Vəlixanov,**
*filologiya elmləri doktoru*

Əbdürrəhim bəy Haqverdiyev XIX əsrin sonu-XX əsrin əvvəlləri Azərbaycan ictimai-ədəbi və mədəni fikri tarixində özgün yeri olan şəxsiyyətlərdəndir. O, dramaturq, rejissor, dirijor, nasir, publisist, pedaqoq, tədqiqatçı alim kimi çoxcəhətli səmərəli fəaliyyəti ilə milli-mədəni şüurumuzun və sosial-siyasi düşüncəmizin inkişaf edib formalaşmasında xüsusi rol oynamış, duma üzvü, xalq komissarı və digər vəzifələr daşımaqla

dövlətçilik və idarəçilik işinin təkmilləşdirilməsi sahəsində öz xidmətlərini əsirgəməmişdir.

**Alxan Bayramoğlu,**
*filologiya elmləri doktoru, professor*

Həqiqətən də Azərbaycan realist nəslinin görkəmli nümayəndəsi sayılan Əbdürrəhim bəy Haqverdiyevin əsərləri Azərbaycan ədəbiyyatına yeni nəfəs və şöhrət gətirdi.

**Flora Xəlilzadə,**
*Əməkdar jurnalist*

Kitabxanada keçiriləcək ənənəvi tədbir forması kimi *"Ədəbi-irfani Bəy..."* adlı **oxucularla söhbət** keçirilə bilər. Tədbirdə kitabxanaçının dəyərli məlumatlarından sonra iştirakçılar və oxucular ədibin həyat və yaradıcılığı haqqında öz fikirlərini bildirirlər.

*Kitabxanaçı:* Əbdürrəhim bəy Haqverdiyev (tam adı: Əbdürrəhim bəy Əsəd bəy oğlu Haqverdiyev; 17 may 1870, Şuşa, Yelizavetpol quberniyası – 11 dekabr 1933, Bakı) — Azərbaycanlı yazıçı, dramaturq, pedaqoq, ədəbiyyatşünas, teatr xadimi və ictimai-siyasi xadim, klassik Azərbaycan ədəbiyyatının korifeyi. Azərbaycan SSR Əməkdar incəsənət xadimi (1928), Birinci Rus Dumasının Azərbaycandan deputatı, Gürcüstan Parlamentinin deputatı; "Leyli və Məcnun" operasının premyerasında ilk dirijor, Teatr Şurasının təsisçisi və birinci rəhbəri, Yazıçılar İttifaqının üzvü, məşhur "Molla Nəsrəddin" jurnalının baş redaktorlarından biridir. Bununla yanaşı realist Azərbaycan ədəbiyyatının görkəmli simalarından olan Əbdürrəhim bəy Haqverdiyev yaradıcılığa on doqquzuncu əsrin doxsanıncı illərində başlayıb. Ədəbiyyat tarixinə klassik hekayələri və faciə əsərləri ilə daxil olub. Görkəmli teatr təşkilatçısı idi və Azərbaycanın ilk peşəkar rejissoru sayılır. Dili

son dərəcə zəngindir, xalq danışığına, folklor ədəbiyyatına yaxındır.

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi olan naşir, dramaturq, ədəbiyyatşünas, dirijor, Əməkdar incəsənət xadimi Əbdürrəhim bəy Haqverdiyevin anadan olmasının 150 ili tamam olur. İstər dərsliklərdə, araşdırmalarda, istərsə də mədəniyyət tarixində adı əbədiləşən bu istedadlı şəxsiyyətin adının yanındakı “bəy” kəlməsi heç də bizə yanlış öyrədilən müraciət forması deyil, Azərbaycan ədəbiyyatının klassiki sayılan cəfakeş söz sahibi Haqverdiyev bəyzadələr nəslindən imiş. Akademik Bəkir Nəbiyevə məxsus fikirdir ki, Azərbaycan dramaturgiyası və teatrı özünün XIX əsrin sonlarında və XX əsrin əvvəllərində əldə etdiyi bir sıra nailiyyətlər üçün Şuşadan pərvazlanmış Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Süleyman Sani Axundov və Üzeyir Hacıbəyliyə borcludur.

Həqiqətən də Azərbaycan realist nəslinin görkəmli nümayəndəsi sayılan Əbdürrəhim bəy Haqverdiyevin əsərləri Azərbaycan ədəbiyyatına yeni nəfəs və şöhrət gətirdi. Orta məktəbdən bu günə qədər unudulmaz yazıçı və dramaturq Əbdürrəhim bəy Haqverdiyevin adı çəkiləndə öyrəndiklərimiz, oxuduqlarımız yada düşür. Bir sıra əsərləri müəllifin işıqlı obrazını gözlərimiz qarşısında canlandırır, neçə-neçə tipləri yada salır.

Azərbaycan ədəbiyyatında Mirzə Fətəli Axundov ənənələrinin mahir davamçısı sayılan Əbdürrəhim bəy Haqverdiyev məsləkdaşı Mirzə Cəlil kimi hekayə janrına çox əhəmiyyət verərək bu ədəbi formanın bənzərsiz nümunələrini yaratmışdır.

Rus ədəbiyyatında A.P.Çexov kimdirsə, Azərbaycan nəsrində də Əbdürrəhim bəy Haqverdiyev o zirvədə dayanıb. Adi hadisələri bədii təfəkkürdən keçirərək mənalandıran, şirin bir üslubda, təsirli bir formada oxucuya çatdıran müəllifin

“Mirzə Səfər”  hekayəsində qələmə aldığı məşhur mükalimə bu gün də dillər əzbəridir. Bu əsərlə əlaqədar ədəbiyyatşünas alim Mir Cəlal yazırdı: “Mirzə Səfər” insanlıq şərəfini hər şeydən uca tuturdu. Bunun özü bir xidmətdir. Bütün insanlar Mirzə Səfər kimi düşünsəydilər, Həsən ağa kimi nanəcib insanlar cəmiyyətdə yuva salmağa imkan tapmazdılar”.

*Tədbirin sonunda məktəblilər ədibin “Mirzə Səfər” hekayəsini qiraətli şəkildə səsləndirdilər.*

Əbdürrəhim bəy Haqverdiyev irsini oxuculara çatdırmaq məqsədi ilə kitabxanada *“Sözün dəyərinə dayaq duranlar”* adlı **konfrans** keçirilə bilər. Bunun üçün kitabxanaçı oxucuları kitabxanaya cəlb edərək onları böyük maarifçinin  yaradıcılığı ilə tanış edir. Təyin olunmuş vaxtda oxucular kitabxanaya gələrək tədbirdə iştirak edirlər. Tədbiri açıq elan edən kitabxanaçı hər kəsi salamladıqdan sonra böyük maarif carçısı Əbdürrəhim bəy Haqverdiyevin  keşməkeşli ömür yolundan və coşğun yaradıcılığından söhbət açır:

*Kitabxanaçı:* 1884-cü ildə Haqverdiyev Şuşada bir teatr tamaşasında iştirak edir. Tamaşa gənc Əbdürrəhimə çox xoş gəlir və onun ədəbi yaradıcılığa başlamasına təsir edən ilk amillərdən biri olur.

Ədib özü deyir: “Yadımdadır, Mirzə Fətəlinin “Xırs quldurbasan” ı oynanılırdı. Bu əsəri gördükdən sonra Mirzə Fətəlinin məcmuəsini tapıb oxumağa başladım, hətta “Hacı Daşdəmir” adlı bir komediya da Mirzə Fətəlinin “Hacı Qara” sı məzmununda yazıb Yusif bəy Məliknəzərovun mülahizəsinə verdim. Yusif bəy həqiqi pedaqoq idi. O, mənim bu pyesimi bir növ dil ilə mənə qaytardı ki, mən nə ondan incidim və nə də həvəsdən düşdüm”.

Peterburq ədəbi həyatının, tez-tez Aleksandrinsk teatrında baxdığı tamaşaların təsirilə Haqverdiyevdə sənətə, teatra olan həvəs daha da artır. Gənc yazıçı özünün ilk əsərləri olan

“Yeyərsən qaz ətini, görərsən ləzzətini” (1892) və “Dağılan tifaq” ı (1896) da Peterburqda yazır. 1899-cu ildə o, Peterburqdan Şuşaya qayıdır. Şuşada iki il qalır və xalq yaradıcılığı nümunələri toplamaqla məşğul olur.

Ədib “Bəxtsiz cavan” pyesini də 1900-cü ildə Şuşada yazır. Pyes elə həmin ildə tamaşaya qoyulur. 1901-ci ildə Haqverdiyev Şuşadan Bakıya gəlir və burada “Pəri cadu” pyesini tamamlayır. Əsər səhnədə, müəllifin başqa pyesləri kimi, böyük müvəffəqiyyət qazanır.

Bakı mühiti gənc yazıçının inkişafı üçün geniş imkanlar yaradır, o, burada H.Zərdabi, N.Vəzirov, N.Nərimanov, C.Zeynalov, H.Ərəblinski kimi dövrün qabaqcıl adamları ilə tanış olur, onlarla əlbir işləyir, teatr üçün repertuar hazırlayır, rejissorluq edir, dərs deyir.

Bu dövrdə Haqverdiyev rejissor olduğu, tamaşasına ümumi rəhbərlik etdiyi “Hacı Qara”, “Vəziri-xani-Lənkəran”, “Müfəttiş”, “Otello”, “Qaçaqlar”, “Yağışdan çıxdıq, yağmura düşdük”, “Adı var, özü yox”, “Dağılan tifaq”, “Bəxtsiz cavan” və başqa pyeslərdə, hər şeydən əvvəl, ideyanın təhrif olunmamasına, aktyor oyunundakı təbiiliyə çox fikir verirdi. 1908-ci ildə Üzeyir Hacıbəyovun “Leyli və Məcnun” operasının səhnədə hazırlanmasına rəhbərlik edən Haqverdiyev həm də tamaşada ilk Azərbaycan dirijoru kimi çıxış etmişdir.

Aleksandrinsk teatrında fəaliyyət göstərən Davıdov, Varlamov, Komissarjevskaya, Savina, Dolmatov, Dalski kimi dövrün görkəmli səhnə ustalarının aktyorluq sənətinə yaxşı bələd olan ədib, milli Azərbaycan səhnəsində də belə istedadlı səhnə xadimlərinin yetişməsi yolunda bütün varlığı ilə çalışırdı. Ə.Haqverdiyev Hüseyn Ərəblinski, Əbülfət Vəli, Sidqi Ruhulla, Hüseynqulu Sarabski, Murad Muradov kimi görkəmli sənət ustalarının səhnəyə cəlb edilməsinə, bir aktyor kimi kamilləşməsinə xeyli əmək sərf etmişdir.

Ə.Haqverdiyev 1904-cü ildə Şuşa şəhəri idarəsinə üzv seçildiyi üçün yenidən oraya qayıdır. O, burada çox qalmır, 1905-ci il inqilabından sonra Rusiya dövlət dumasına Gəncə quberniyası üzrə nümayəndə seçilir və Peterburqda qalır, “Ağa Məhəmməd şah Qacar” faciəsini yazmaq üçün dövlət kitabxanasında çalışır.

1907-ci ildə yazıçı yenə həmin faciəyə aid əlavə məlumat toplamaq üçün İrana səyahət edir. Faciə ilk dəfə 1907-ci ildə Bakıda səhnəyə qoyulmuş və ondan sonra da böyük müvəffəqiyyətlə uzun zaman səhnədə oynanılmışdır.

“Molla Nəsrəddin” jurnalı nəşrə başladıqdan sonra orada Ceyranəli, Xortdan, Həkimi-nuni-səğir, Lağlağı, Mozalan, Süpürgəsaqqal və başqa imzalarla hekayə, felyeton və publisist məqalələr çap etdirən Ə.Haqverdiyev “Cəhənnəm məktubları”, “Mozalan bəyin səyahətnaməsi”, “Marallarım” adlı əsərləri ilə “Molla Nəsrəddin” jurnalının fəal mühərrirlərindən biri kimi şöhrət tapır. Həmin illərdə ədib “Millət dostları” (1905), “Ac həriflər” (1911) kimi kiçik həcmli səhnə əsərləri də yazır.

Haqverdiyev “Nicat” cəmiyyətində və Kür-Araz gəmiçiliyində işlədiyi müddətdə, vəzifəsi ilə əlaqədar olaraq İranı, Qafqazı, Orta Asiyanı və Volqaboyu ölkələrini gəzir. Səyahət ədibdə yeni yaradıcılıq intibahları yaradır. 1910-cu ildə Həştərxanda N.Nərimanovla bərabər, şəhərin ictimai və mədəni həyatında fəal çalışır.

1911-ci ildə vəzifəsindən azad edilən Haqverdiyev Ağdama köçür və beş il orada yaşayır. Ağdamda yaşadığı müddətdə bədii yaradıcılığını davam etdirir; “Molla Nəsrəddin” jurnalına hekayələr, felyetonlar, gündəlik məsələlərlə əlaqədar olaraq publisistik məqalələr yazır. Ə.Haqverdiyev 1916-cı ildə Tiflisdə “Şəhərlər ittifaqının Qafqaz şöbəsi əxbarı” adlı rus dilində çap olunan aylıq məcmuənin müdirliyinə təyin olunur və Tiflisə gedir. 1917-ci ildə “Röya” və “Həmşəri pasportu” hekayələrini

yazır. 1917-ci il fevral inqilabından sonra Haqverdiyev Borçalı qəzasına müvəkkil təyin olunub Şulaver qəsəbəsinə gedir və il yarım orada işləyir.

1920-ci ildən Haqverdiyevin ədəbi və ictimai fəaliyyətinin yeni dövrü başlanır. O, incəsənət şöbəsinin müdiri vəzifəsini aparmaqla yanaşı, dövlət teatrlarında müfəttiş vəzifəsində çalışır. 1921-ci ildən 1931-ci ilə qədər Azərbaycan Dövlət Universitetində ədəbiyyatdan mühazirələr oxuyur, gənc kadrlar hazırlığı işində fəal iştirak edir. Haqverdiyev müəllimlik etməklə bərabər, bir çox məsul ictimai vəzifələrdə də çalışır. O, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin sədr müavini və sonra sədri (1923-25), Şərq fakültəsinin katibi (1992-25) olur.

Ədib müəllimliklə, yeni əsərlər yazmaqla, teatra yaxından kömək etməklə, müxtəlif vəzifələrdə çalışmaqla kifayətlənmir. O, müxtəlif yerlərdə Azərbaycan ədəbiyyatı və incəsənəti, günün zəruri məsələləri haqqında məruzələr edir.

1927-ci ildə Haqverdiyevin ədəbi-ictimai fəaliyyətinin otuz beş illik yubileyi keçirilir. 1928-ci ildə ədəbiyyat və incəsənət sahəsindəki xidmətləri nəzərə alınaraq qocaman ədibə Əməkdar incəsənət xadimi adı verilir.

Haqverdiyev bu dövrdə "Qırmızı qarı", "Ədalət qapıları", "Ağac kölgəsində", "Vaveyla", "Köhnə dudman", "Baba yurdunda", "Qadınlar bayramı", "Kamran", "Sağsağan", "Yoldaş Koroğlu", "Çox gözəl" və s. dram əsərləri yazmaqla bərabər, "Marallarım" silsiləsindən olan satirik və başqa ciddi ruhlu çoxlu hekayələr də çap etdirir. Hekayələrin bir hissəsi "Marallarım" (1927) və digər hissəsi "Hekayələr" (1940) kitabında toplanmışdır.

Ə.Haqverdiyev öz ölkəsinin və başqa xalqların tarixinə yaxşı bələd olan alim idi. Ədibin Azərbaycan teatrı, tarixi dram, xalq tamaşaları, M.F.Axundov, M.Ə.Sabir, "Molla Nəsrəddin", M.Qorki, Azərbaycan dili, milli şeir, realist ədəbiyyatımızın

bəzi məsələləri haqqındakı elmi-nəzəri məqalələri, dərin məzmunlu publisistikası bu gün də öz əhəmiyyətini itirməmişdir. Təsadüfi deyil ki, 1924-cü ildə Ə.Haqverdiyev Rusiya Elmlər Akademiyasının ölkəşünaslıq bürosuna müxbir üzv seçilmişdir.

Ə.Haqverdiyevin ədəbi irsi içərisində rus və Qərbi Avropa ədəbiyyatından etdiyi bir sıra qiymətli tərcümələr də vardır. Onun M.Qorkidən tərcümə etdiyi əsərlər "İzergil qarı və qeyri hekayələr" (1928) və Çexovdan tərcümə etdiyi novellalar "Dəhşətli gecə" (1928) adlı kitablarda toplanmışdır.

Bunlardan başqa ədib Şekspirin "Hamlet", Şillerin "Qaçaqlar", Volterin "Soltan Osman", Zolyanın "Qazmaçılar", Andersenin "Bülbül", "Şahın təzə libası", Lanskoyun "Qəzəvat", Çirikovun "Yəhudilər", Korolenkonun "Qoca zəng çalan" əsərlərini də tərcümə etmişdir.

Əbdürrəhim bəy Haqverdiyev yubileyi ilə bağlı kitabxanada keçirilən tədbirlərdən biri də *"Ulduzlar sönmür"* adlı **"Biblioqrafik icmal"** dır. Kitabxanaçı biblioqrafik icmal keçirərkən oxuculara ədibin kitabları, eləcə də "Seçilmiş əsərləri" adlı kitabı  haqqında məlumat verir.

*Kitabxanaçı:* Əbdürrəhim bəy Haqverdiyev sovet dövrü Azərbaycan ədəbiyyatının ilk yaradıcılarından olan qüdrətli sənətkardır. Klassik realist dramaturgiyamızı dolğun məzmunlu dram əsərləri ilə zənginləşdirən ədib eyni zamanda nəsr əsərləri ilə şöhrətlənmişdir. Haqverdiyevin dövrün bir sıra mühüm məsələlərinin obrazlı həllini verən yumoristik-satirik hekayələri və povestləri XX yüzilliyin əvvəlində milli nəsrdə gedən axtarışları ifadə etmək baxımından ən səciyyəvi klassik bədii nümunələrdir. "Seçilmiş əsərləri" nin bu cildinə mütəfəkkir ədibin zəngin bədii nəsri ilə yanaşı elmi-publisist irsi haqqında geniş təsəvvür yaradan məqalələri, məktubları daxil edilmişdir. Bununla yanaşı bu iki cilddə olan kitablarına ədibin dram

əsərləri daxil edilmişdir. Tariximizin mühüm bir dövrünü əks etdirən bu əsərlər XX yüzilin əvvəlində Azərbaycan səhnəsində gedən axtarışları ifadə edən səciyyəvi bədii nümunədir.

Yaradıcılığının birinci dövründə dram əsərləri yazan Ə.Haqverdiyev, ikinci dövründə (1905-1920) Azərbaycan ədəbiyyatına ustad bir hekayəçi kimi daxil olur. Bu illərdə o, Azərbaycan bədii nəsrinin gözəl nümunələrini yaradır, onun yeni məzmunla zənginləşməsinə, formaca kamilləşməsinə kömək edir. Həmin dövrdə ədib bir sıra səhnə əsərləri də yazmışdır: "Millət dostları" (1905), "Ağa Məhəmməd şah Qacar" (1907), "Ac həriflər" (1911), "Xəyalat" (1911) və s.

Kiçik həcmli "Millət dostları" adlı satirik pyesdə ədib, özünü "millət dostları" adlandıran pozğun burjua ziyalılarının ikiüzlülüyünü, sözləri ilə əməlləri arasındakı ziddiyyəti tənqidə tutur. Mühəndis Firudin bəy, meşəbəyi Səfər bəy, təbib Vəli bəy, vəkil Əsgər bəy, silistçi Mürsəl bəy xalq adından, millət adından ağızları köpüklənə-köpüklənə danışır, canıyananlıq edir, özlərini "qeyrətli müsəlman", "millət qeydkeşi", "müsəlman camaatının həmişə qabağa getməsinə çalışan" kimi göstərirlər. Qadın və şərabı hər şeydən əziz tutan həmin adamlar, əslində xalqı, milləti ələ salan tüfeylilərdir. Ədib bu "qeyrətli" burjua ziyalılarının orijinal bir yolla ifşa edir: oturdular, "avam arasında savad intişar edən cəmiyyət" düzəltdilər, yedilər, içdilər, bir-birinin baş-gözünü əzişdirdilər və dağıldılar. Pyesin sonunda nökər Səfinin sərxoş burjua ziyalılarının dalınca dediyi: "Bəli, islam qabağa getdi" sözləri xüsusi bir qüvvətlə səslənir.

"Ağa Məhəmməd şah Qacar" pyesini yaratmaq üçün Haqverdiyev təsvir etdiyi dövrü təfərrüatı ilə öyrənmiş, ciddi tədqiqat işi aparmışdır. O, tarixi faciə yazmağın çətinliyini bir sənətkar kimi gözəl başa düşmüş, özündən əvvəl faciə yazan Avropa və rus dramaturqlarının əsərlərini mütaliə etmiş və orijinal bir pyes yaratmışdır. "Ağa Məhəmməd şah Qacar"

ədəbiyyat tariximizdəki ikinci tarixi faciə idi. Birinci tarixi faciə olan "Nadir şah" ı Nəriman Nərimanov 1898-ci ildə yazmışdır. N.Nərimanov da, Ə.Haqverdiyev də yaradıcılıqlarında realist M.F.Axundov ədəbi məktəbinin görkəmli davamçıları idilər. Ə.Haqverdiyev tarixi həqiqətlərə sadiq qalaraq, faciədə İranın qəddar şahı olan Ağa Məhəmməd şah Qacarın istilaçı siyasətini, Tiflis və Qarabağa hücumunu təsvir etmişdir. 1907-ci ildə və ondan sonra, uzun zaman böyük müvəffəqiyyətlə səhnədə nümayiş etdirilən faciənin müasir ruhunu gücləndirən əsas səbəblərdən biri də Qacar simasında işğalçı müharibənin ifşası idi. Pyesin tamaşaya qoyulduğu illər İranda inqilabın yüksəldiyi, irticanın quduzlaşdığı dövr idi. Pyesdə müəllif tək bir müstəbidi ifşa etməklə kifayətlənməmiş, ümumiyyətlə, Şərq istibdadını və onun törətdiyi vəhşilikləri tənqid etmişdir.

Bütün yaradıcılığı boyu realist olan Haqverdiyev, qəhrəmanın faciəsini bəhs etdiyi dövrün ictimai münasibətləri və tarixi şəraiti ilə əlaqələndirərək, Qacarın fəaliyyətini və ölümünü tarixi bir zərurət kimi şərh etmişdir. Ağa Məhəmməd şahın, Nadirin qardaşı oğlu Ədil şah tərəfindən əsir edilərək aparılması, hələ kiçik ikən atasının onun gözləri qarşısında öldürülməsi, İranı vahid dövlət şəklində birləşdirmək siyasəti yolunda rastlaşdığı çətinliklər, doğma qardaşı Cəfərqulu xanı öldürüb, bir insan kimi vicdan əzabı çəkməsi və nəhayət, əhalinin nifrəti Qacarı faciəvi qəhrəman vəziyyətinə salan əsas şərtlərdəndir. O həm İranın acınacaqlı halına yanan ağıllı bir şah, həm də qaniçən, zülmü ərşə yüksələn bir zalımdır. Ağa Məhəmməd şah hələ düşmən əlində əsir olarkən vaxtının çoxunu mütaliəyə sərf edib, dövlət işləri ilə maraqlanır, İranın gələcəyi haqqında düşünür. İranı "yaralı bədən", özünü də "həkim" sayır. Hakimiyyəti ələ aldıqdan sonra bütün biliyindən bacarıqla istifadə edir. Ağa Məhəmməd şah elə bir hakimiyyət yaratmaq istəyir ki, əhalinin məhəbbətini qazansın. O, bu işdə keçmiş İran

şahlarının iş təcrübəsindən istifadə edir, onların buraxdığı səhvləri təkrar etməməyə çalışır. Qacar həm də bacarıqlı sərkərdə, dövlət işlərini yaxşı bilən bir diplomatdır. O, İranda hakimiyyət sürmüş bütün padşahların, cəsur sərkərdələrin müsbət və mənfi cəhətlərini öyrənmiş, keçmiş müharibələrdən dərs almışdır. Buna görə də qüvvətli düşmən qarşısında özünü itirmir, dərhal tədbirə əl atır. Qacar surəti yazıçının realist üslubuna uyğun olaraq, eyni zamanda, ikiüzlü, alçaq, qaniçən, fəryadlardan həzz alan bir cani və işğalçı kimi daha çox nəzəri cəlb edir. Ağa Məhəmməd şah gözünü dünyaya açdığı gündən fəlakətlə üzləşmiş, atasının qəlbinə sancılan xəncərin qanı onun gözlərini qızartmış, Ədil şahın əmrilə çəkdiyi iztirabdan rəngi əbədi olaraq saralmış, dünya ləzzətindən məhrum olmuşdur. Belə bir adamın qəddar, qaniçən, intiqamçı bir şah olması, əlbəttə, təbiidir. Haqverdiyev də realist bir sənətkar kimi şahın bütün mənfi xüsusiyyətlərini qələmə almışdır. Şah həmişə təşvişdədir, gecələr yata bilmir, intiqam arzusu ilə çırpınır: "Beşikdə mələr uşaqlaradək qırdırsam yenə ürəyim soyumaz"- söyləyir.

Ağa Məhəmməd şah öz dünyagörüşü ilə orta əsr fəlsəfəsi sxolastikaya əsaslanır. O, oxuduğu çoxlu kitablardan nəticələr çıxaran və bu nəticələri teizm və fatalizmlə əlaqələndirərək öz məqsədləri üçün istifadəyə çalışan Şərq hakimidir. O, dövləti idarə üsulunda dindən istifadə edir, özünün Allah tərəfindən İran üçün qanuni hakim təyin edildiyini yəqinləşdirir. Hətta Nadirin fəaliyyətini dinlə əlaqələndirir və ədavət nəticəsində tarmar edilən Qacar nəslinin dağılmasını Allah tərəfindən göndərilmiş Nadir bəlasında görür və bunu "sirri-rəbbülaləmin" adlandırır. Əsərdə Tiflis və Şuşa əhalisinin istilaya və istilaçılara qarşı fəal mübarizəsinə və möhkəmliyinə, xalqın birlik əzminə məhəbbət vardır. Faciədə, İran tarixinin on səkkiz illik (1779-1797) kəşməkəşli bir dövrü əhatə olunmuş və pyes gərgin dramatik

ziddiyyətlər üzərində qurulmuşdur. Oxucu bir-birini təqib edən mübarizələr, toqquşmalar və çarpışmalarda qüvvətli insan xarakterləri ilə tanış olur. Ədib, Qacarla əlaqədar olan münaqişələri böyük bacarıqla müxtəlif yerlərdə (Mazandaran, Tiflis, Xorasan, Şuşa) inkişaf etdirir və hadisələri məharətlə bir-birinə bağlayır. Müəllifin başqa dram əsərlərindən fərqli olaraq, "Ağa Məhəmməd şah Qacar" pyesi nisbətən təmtəraqlı dildə yazılmışdır. Bu xüsusiyyət monoloqlarda daha çox diqqəti cəlb edir. Pyesdə ədib, bədii dil üçün çox zəruri olan məcazlardan, hikmətli sözlərdən, idiomatik ifadələrdən, xalq məsəllərindən yerli-yerində istifadə etmişdir, Qacarın dili xüsusilə zəngindir.

Ədib "Xəyalat" pyesində Mirzə Fətəli Axundovun "böyük faciə" ilə dolu həyatını ölməz komediyalarının qəhrəmanları: Hatəmxan ağa, Hacı Qara, Dərviş Məstəli şah, Molla İbrahim Xəlil və s. ilə əlaqəli şəkildə təsvir edir. Pyesdə incə və orijinal bir yolla M.F.Axundov və onun ölməz komediya qəhrəmanları qarşılaşdırılır, böyük mütəfəkkir-ədibin öz dövründə necə qiymətləndirildiyi və necə ağır şəraitdə yazıb-yaratdığı göstərilir. 1906-cı ildə "Molla Nəsrəddin" jurnalının nəşrə başlaması ilə Ə.Haqverdiyev yaradıcılıq istedadının müxtəlif cəhətlərini inkişaf etdirmək imkanı əldə edir. Ədib 1907-ci ilin yanvar ayından başlayaraq jurnalda Azərbaycan nəsrinin klassik nümunələrindən olan "Cəhənnəm məktubları"nı çap etdirir. "Cəhənnəm məktubları" na qədər Haqverdiyev "Ata və oğul" və "Ayın şahidliyi" adlı iki hekayə yazmışdır. Dramlarında olduğu kimi, hekayələrdə də ədalətsizliyi, əxlaq pozğunluğunu, hüquq bərabərsizliyini pisləmişdir.

"Molla Nəsrəddin" jurnalında çap olunan "Cəhənnəm məktubları" (1907), "Bomba" (1908), "Mozalan bəyin səyahətnaməsi" (1908) və "Marallarım" adı altında gedən hekayələrdə ədib dövrün bir sıra mühüm məsələlərinin bədii

həllini vermişdir. Yazıçı povest və hekayələrində ictimai ədalətsizlik üzərində qurulan üsuli-idarənin və bu idarədə işləyən pristavların, qalabəyilərin, jandarm rəislərinin, qorodovoyların təbiət və münasibətlərindəki saxtakarlığı ifşa etmişdir. Bu adamlar, kərbəlayı Zal da daxil olmaqla, mənsəbpərəstlik, iftiraçılıq və xudpəsəndlik kimi mənfi ictimai xəstəliklərə tutulmuşlar, öz mənfəətləri ucundan bir-birini məhv etməyə hazırdırlar. Ə.Haqverdiyev 1910-cu ildə "Marallarım" adı altında "Molla Nəsrəddin" jurnalında çap etdirdiyi hekayələrini "Mütrüb dəftəri" ilə başlamışdır. Hekayədə kənd yüzbaşısı Qasım əminin fəaliyyətindən danışılır. Qasım əmi kəndin sabiq yüzbaşısıdır. Dələduz və hiyləgərdir. Onun yüzbaşılıq etdiyi kənddə dəhşətli səhnələr çoxdur. Burada insanlar bir-birini adları ilə deyil, ayamaları ilə çağırırlar. Bunun üçündür ki, Qasım əmiyə heç bir dəftər-filan lazım deyildir. O özü "mütrüb dəftəridir". Bir çoxlarına ləqəbi də o vermişdir. Kəndlərdə Qasım əmi kimi yüzbaşılardan başqa istismarçı bəylər, xanlar, mülkədarlar da vardır. Ə.Haqverdiyev, ictimai mühiti və insanları əks etdirərkən müxtəlif üsullardan istifadə edir, eyni xasiyyətli adamlardan bir çoxunu öyrənib (şübhəsiz ki, eyni sinfə mənsub olanları) onların əsas xüsusiyyətlərini bir nəfərin simasında ümumiləşdirir, tipik şəraitin tipik surətlərini yaradır. O yazır: "Mən gələn məqalələrimdə heç maralımın adını yazmayacağam, çünki hər maralım öz-özünü tanıyacaq. Qarelər üçün bu adların bir elə əhəmiyyəti yoxdur; maralın adı istəyir, Rəməzan, istəyir Şəban, istəyir Səfər, istəyir Rəcəb olsun, qare üçün bir təfavüt etməz. Ancaq maral olsun. Bu maralın adı hərçənd Qasım əmidir, amma Qasım əmi bir maral deyil. Neçə yüz, bəlkə neçə min maralı yığıb, bir yerdə yoğurub içindən bir maral çıxarıb adını Qasım əmi qoymuşam" ("Molla Nəsrəddin", 20 avqust 1910, №30).

Ədib hekayələrində burjua-mülkədar cəmiyyətinin ayrı-ayrı nöqsanlarını, ictimai xəstəliklərini tənqid edərkən gülüşdən, onun müxtəlif şəkillərindən bacarıqla istifadə edir. Məsələn, “Mütrüb dəftəri”, “Həmşəri pasportu” hekayələrində ictimai qanun-qaydalar tənqid olunur. Buradakı gülüşdə istehza daha çox nəzərə çarpır. Ümumiyyətlə, istehza, Ə.Haqverdiyev gülüşündə, tənqid üsulunda mühüm yer tutur. Ondakı istehza həm açıq, həm də gizli şəkildədir. “Bomba”, “Qiraət”, “Diş ağrısı” və başqa hekayələrdə isə gülüşlə yanaşı göz yaşları da, gülüşdən doğan kədər də vardır. Bu gülüş güldürdüyü oxucunu sonra dərindən kədərləndirir. Bu cəhətdən Ə.Haqverdiyevin gülüşü böyük rus yazıçısı Çexovun gülüşünü yada salır. Ə.Haqverdiyev hekayələrinin əsas mövzularından biri mövhumatın tənqididir. “Cəhənnəm məktubları”, “Mozalan bəyin səyahətnaməsi”, “Marallarım” kimi əsərlərində müəllif cəhalət, nadanlıq və köhnə etiqadlara istehza edir, xalqın ruhunu, zehnini zəhərləyən mübəlliğləri kəskin tənqid atəşinə tuturdu. “Cəhənnəm məktubları” bu nöqteyinəzərdən daha təsirlidir. Dünya ədəbiyyatında bir çox yazıçılar, o cümlədən Haqverdiyev də, yaşadıqları dövrün, ictimai-siyasi həyatın bir sıra məsələlərini ifşa üçün “cəhənnəm” adlanan “o biri dünyadan” bir vasitə kimi istifadə etmişlər. Ədib özü yazır: “Söz yox ki, cəhənnəm özü bir mövhumi məkandır. Amma bu əsərdə “cəhənnəm” sözünü “mənfi tiplər” cəmiyyəti mənasında düşünməlidir”. “Cəhənnəm”dəki günahkarlar kimdir? Avam zəhmətkeşlərin canına, malına qəsd edən istismarçılar, vətəni pula satan rüşvətxorlar, camaatın arasında ədavət salan yalançı din nümayəndələri, müstəbid hakimlər, yetim malı yeyənlər, çar məmurlarına yaltaqlanan şeytan təbiətli, qulluqbazlar və s. Haqverdiyevin “Marallarım” sərlövhəsiylə çap etdirdiyi hekayələr “Cəhənnəm məktubları” nı tamamlayır. Hekayələrdə “cəhənnəmdə” cəza çəkənlərin oraya “getməzdən” əvvəl

dünyada gördüyü işlər təsvir və ifşa olunur. "Marallarım" kimlərdir? Ədib özü bu suala belə cavab verir: "Şükür olsun Allaha, Yer üzündə mənim marallarımın hesabı üç yüz milyona çatıb. Gedərsən İrana, Hindistana, Türküstana, Ərəbistana, Buxaraya, Əfqanıstana, İrəvana, Naxçıvana, Qarabağa, Lənkərana, Salyana, Bakıya, Batuma, Dərbəndə, Dağıstana... hər yer mənim marallarımla doludur. Gözəl marallarım, qotur, bitli marallarım, başları qapazlı marallarım, üzləri tüpürcəkli marallarım". Ədib, "Mozalan bəyin səyahətnaməsi" ndə olduğu kimi, "Seyidlər ocağı" hekayəsində də məsciddə vaqe olan əhvalatı oxucuya göstərir. Allah və şəriət adından çıxış edən dələduzlar öz hiylə və kələklərini müqəddəs evdə həyata keçirirlər. "Pir", "Seyidlər ocağı", "Qiraət", "Cəhənnəm məktubları" kimi əsərlərdə diqqəti cəlb edən xüsusiyyətlərdən biri haşiyələrdir. Həmin haşiyələr müəllifin demək istədiyi fikri aydınlaşdırır, təsir gücünü artırır.

Hekayənin özü kimi maraqla oxunan haşiyələrdə keçmiş şəhər evlərinin quruluşu, adət və ənənələr, köçərilərin yaşayışı, inqilabdan əvvəlki teatrın vəziyyəti, hacıların, məşədi və seyidlərin işlətdikləri fırıldaqlar haqqında məlumat verilir. Yazıçının hekayələrində başqa tipli haşiyələr də vardır ki, bunlar bitmiş yığcam hekayələrdir. "Diş ağrısı" hekayəsindəki haşiyədə buqələmun kimi cilddən-cildə girən, "vaxtından, mövqeyindən istifadə" edən bir "maralın" sərgüzəşti nağıl edilir. Burada süjet də, tip də, hadisə də tamdır. Ə.Haqverdiyevin hekayələrində, bir çox müasirlərinin yaradıcılığında olduğu kimi, maarif, təlim-tərbiyə məsələlərinə xeyli yer verilmişdir. "Şikayət" hekayəsində din ilə elm arasındakı ziddiyyət, yeni təlim tərbiyənin xalqı ayıq saldığını dərk edən din nümayəndələrinin müxtəlif fırıldaqlara əl atmaları təsvir olunmuşdur. Vəzifəsinə pul, qazanc mənbəyi kimi baxan, tipin öz sözü ilə deyilsə "başını girləyən "uçitel" Mirzə Səttarın

“Gedirəm dərs gətirməyə!” sözlərini nəinki uşaqlar, böyüklər də əzbər bilirlər. Mirzə Səttar bu sözlərlə uşaqları aldadır və qapı-qapı düşüb sülənir. “Tənqid” hekayəsində Mirzə Mahmud kimi “tənqidçilər” və simasız qəzetlər tənqid edilir. “Tənqid” hekayəsinin qəhrəmanı burjua ziyalısı Mirzə Mahmud “Ac həriflər” pyesindəki “ac həriflərdən” biri və ən pisidir. O, “İftira” qəzetinin mühərriridir, teatr tamaşalarından başqa, aşxanaları da tənqid edir. Mirzə Mahmuda bir manat göstərən kimi əqidəsi də, məsləki də dəyişir. Beləliklə, Haqverdiyev göstərir ki, mənfəətpərəst burjua ziyalısı zəhmətkeş kütlələr üçün saxtakar ruhanilər qədər qorxulu və zərərlidir. Ədibin 1915-ci ildə çap etdirdiyi “Şeyx Şəban” hekayəsi realist Azərbaycan nəsrinin ən gözəl nümunələrindəndir. Burada “kiçik” insanların faciəsi, onları şikəst vəziyyətə salan köhnə cəmiyyətin tənqidiyaddan çıxmayan səhnələrlə verilmişdir. Hekayənin qəhrəmanı Şeyx Şəban mülkədar-burjua cəmiyyətində başını itirmiş minlərlə insanlardan biridir. O, həyatını təmin etmək üçün cilddən-cildə girir, oğru-quldur olur, həbsxanada yatır, nəhayət, mövhumatın təsirilə azançı olur, şeyx ləqəbini qazanır və axırda da mənasız keçirdiyi həyatla vidalaşır. Arvadı Gülsüm də Şeyx Şəbana bənzəyir. O da əlindən gələn işlərdən yapışır. Əgər Şeyx Şəban “azan vermək”, “meyit qabağında qəbiristana getmək”, “fəqirfüqəranın ayaqqabısını yamamaqla” gün keçirirsə, Gülsüm də “çöp ötürür, ruf tutur, noxud falı açır” və s. Nə Şeyx Şəbanın, nə də Gülsümün aydın bir idealı yoxdur və ola da bilməzdi. “Şeyx Şəban” hekayəsi elə bir aynadır ki, bu aynada köhnə Azərbaycanın xırda ticarət şəhəri üçün səciyyəvi olan bir çox səhnələr, insanlar öz real əksini tapmışdır. “Şeyx Şəban” öz quruluşu etibarilə də orijinaldır. Hekayədə süjetli kompozisiyanı təşkil edən əsas hissələrin hamısı vardır. Möhkəm və aydın kompozisiya ustası olan Haqverdiyevin hekayələrində hadisələr ya müstəqim yolla inkişaf edir (“Ayın şahidliyi”, “Pir”,

“Bomba”, “Tənqid”, “Çeşmə” və s.), ya iki xətlə, paralel surətdə davam etdirilir (“Odabaşının hekayəsi”, “Koroğlu”), ya da qeyri-müstəqim xətt üzrə inkişaf edir ki, burada əhvalatın ortasından bir hadisənin sonu hekayənin əvvəlinə keçirilir və baş verən əhvalatın səbəbləri sonradan nəql edilir (“Ata və oğul”, “Şəbih”, “Şeyx Şəban” və s.).

Yığcamlıq, təsvir və surətlərin reallığı, təbiiliyi, dilin oynaqlığı və lakoniklik Haqverdiyev hekayələrinin əsas xüsusiyyətləridir. Ədibin bir neçə hekayəsinin məzmun və süjeti nağıl və lətifələrdən alınmışdır. Onlar yazıçının öz yaradıcılıq xüsusiyyətlərinə görə işlənib, tamamilə orijinal, mükəmməl bədii əsərlər şəklinə düşmüşdür. “Cəhənnəm məktubları”, “Seyidlər ocağı”, “Pir”, “Şəbih”, “Dəccəlabad” kimi hekayələrdə nağıl və lətifələrdən, onların quruluşundan, başlama tərzindən, gözlənilməz nəticə ilə bitməsindən bacarıqla istifadə edilir. Bu, hər şeydən əvvəl, hekayəni formaca daha mükəmməlləşdirir. Yazıçı lətifəni dövrün səciyyəvi adamları, hadisələri ilə yaradıcı şəkildə bağladığı üçündür ki, hekayə müasir ruhda olur və həqiqi həyatın inikası təsirini bağışlayır. Ə.Haqverdiyevin hekayələri böyük ümumiləşdirmə qüvvəsinə malikdir. Kərbəlayı Zal 25 il polis qulluğunda çalışır və “pensiya” alıb, rahat dolanmaq ümidi ilə yaşayır. Amma işlər öz qaydası ilə getmir. O, bomba əvəzinə qarpız tapır və Kərbəlayı Zalı işdən kənar edirlər (“Bomba”). Camaatın avamlığından məharətlə istifadə edən fırıldaqçı din nümayəndələri şəbih çıxardır və ciblərini doldururlar (“Şəbih”). Yenə camaatın sadəlövhlüyündən ustalıqla istifadə edən lotu, avara, dələduzlar hiylə ilə pir düzəldib, oranı kef, əyyaşlıq xərcləri mənbəyinə çevirirlər (“Pir”). “Mədəni” bir vəkil olan Mahmud bəy çeşmək zarafatı ilə dostunu çərlədib öldürür (“Çeşmək”). Arvadının avamlığından və sadəlövhlüyündən istifadə edən Məşədi Qulam gecələr min cür hiylədən çıxır (“Qiraət”). Ağrıyan bir dişi

çəkdirmək üçün əlli qəpiyə qıymayan Hacı Rüstəm biləbilə üç sağlam dişini çəkdirib əlli qəpik verir və həkimi aldatdığına sevinir ("Diş ağrısı") və s. Bütün bu hadisələr gülməli və kiçik görünsə də, bir sıra acı həqiqətlərin ümumiləşdirilmiş tipik ifadəsidir. Ə.Haqverdiyev, yaradıcılığının ikinci dövründə C.Məmmədquluzadə, M.Ə.Sabir kimi inqilabçı-demokrat sənətkarlarla çiyin-çiyinə getmiş, XX əsr ədəbiyyatının ən qüdrətli sənətkarlarından biri kimi tanınmışdır. 1920-ci ildən sonra Ə.Haqverdiyev yaradıcılığının üçüncü dövrü başlanır. Bu dövrdə (1920-1933) Ə.Haqverdiyevin görüşlərində əmələ gələn ciddi dönüş yazdığı pyeslərdə öz əksini tapmışdır. O, həmin əsərlər və bir çox gözəl hekayələrilə sovet dövrü Azərbaycan ədəbiyyatının ilk yaradıcılarından olmuşdur. "Köhnə dudman" (1927) Haqverdiyevin ikinci tarixi dramı idi. Pyesdə XVIII əsr feodallarından Pərviz xanın vəhşilikləri, adam alıb-satması, kəndlilər üzərindəki zülmü təsvir olunur. Əsərdə yazıçının nəzəri cəlb edən müvəffəqiyyətlərindən biri də üsyankar kəndli surətləri yaratmasıdır. Bədil, Eldar, Rəşid, xüsusən Allahqulu haqq və ədalət tələb edən, zülmə boyun əymək istəməyən, intiqam alovu ilə yanan mübariz kəndlilərdir. Azğın Pərviz xan namuslu və igid kəndli Allahquluya ağlagəlməz zülmlər edir. Onun oğlu Bədəli yüz əlli manata Rəhim xana satır. Gözəl qızı Gülsənəmi qaçırdır və Allahqulunun özünü dar ağacından asdırır. Rəhim xanın zülmündən təngə gələrək yoldaşlarını götürüb dağlara çəkilən Bədəlin dərdi el dərdidir, eli zülmdən, dardan qurtarmaq qeyrətidir. "Baba yurdunda" (1927) pyesində Pərviz xanın nəslindən olan Cahangir ağanın zülmü təsvir olunur. Aradan iki əsr keçməsinə baxmayaraq, Azərbaycan kəndlisinin halı dəyişməmişdir. Pərviz xan getmiş, Cahangir ağa gəlmişdir. Cahangir ağa yoxsul kəndli qızı Gülnisəni zorla özünə alır, nişanlısı yoxsul İskəndəri isə öldürtdürür.

Əsərin axırında Cahangir ağanın oğlu, İskəndərzadə adı ilə meydana çıxır və öz atasına qarşı mübarizə aparıb, ölkədə zəhmətkeşlər hakimiyyəti yaranmasına çalışır. Kəndli qızından olan İskəndərzadə dairə icraiyyə komitəsinin sədri vəzifəsində işləyir. Müəllif yoxsul kəndlilərin zülmdən azad olub, hökumət işlərində böyük mövqe tutmalarına sevinir, xalqın azadlığı uğrunda çalışan İskəndərzadəni dərin məhəbbətlə təsvir edir. Pyesdəki Həsən surəti də maraqlıdır. O, kasıb kəndlidir. Lakin xəbis və alçaqdır. Qızı Gülnisənin yalvarış və göz yaşlarına baxmayaraq, onu Cahangir ağanın pəncəsinə atır və özünün "səadətə" çatdığına sevinir. Cahangir ağa ilə qohum olmağından istifadə edərək, yoxsul kəndlilərin başına olmazın oyunlar açır. Xalqın, o cümlədən ədibin Həsən kimi xəbislərə, "qınından çıxıb qınını bəyənməyənlərə", "öz sinfinə qənim kəsilənlərə" nifrəti daha artıqdır. "Ağac kölgəsində" (1921) pyesində Mustafa bəylə kasıb kəndli Cəfər kişi arasındakı konflikt həyatın özündəki konfliktdir. Əsərin əsas qəhrəmanlarından müəllim Kərim acı həqiqətləri izləyə-izləyə kənddə nahaq öldürülən yoxsul Cəfər kişinin meyitini mustafabəylərə göstərərək, kinayə ilə deyir: "Ölməz, qorxma, yuxuya gedib, ayılıb başqa bir dünya görəcək, qisas dünyası"dır. Haqverdiyev qadın azadlığını və onun nəticələrini də ruh yüksəkliyilə qələmə almışdır. "Qadınlar bayramı" (1928) pyesinin qəhrəmanı Cahan xala kəndin yeniləşməsi yolunda böyük işlər görür. Kəndə su çəkilir, məktəb, savadsızlığı ləğv edən kurs, yaslı açılır. Cahan xala inqilabın yetirdiyi yeni insanlardan biridir; o öz hüququnu almış azad Azərbaycan qadınıdır. "Çox gözəl" (1932) pyesi "vətəndaşlıq və səmimi qardaşlıq" hissindən danışan əsərdir. "Qırmızı qarı" (1921) pyesində ədib qarını "qırmızı tufan elçisi", müsbət bir obraz kimi qələmə alır. Qarının bir arzusu var: zəncir və zülm dünyasının axırına çıxmaq! Əsər, əsgərlərin zülmət səltənəti üzərindəki qələbəsi ilə bitir və qarının arzusu

həqiqətə çevrilir. Haqverdiyev mövhumat əleyhinə “Vaveyla”, “Kamran”, “Sağsağan” adlı pyeslər yazdığı kimi, “Uca dağ başında”, “İanə”, “Odabaşının hekayəsi” kimi qüvvətli hekayələr də yazmışdır. Yazıçı “Vaveyla”da (1926) fazil dərbəndlilərin, molla kazımların, molla cabbarların–İrandan gələn bu hiyləgərlərin din adından düzəltdikləri qanlı səhnələri göstərir və ifşa edirsə, “Sağsağan” (1931) pyesində də mövhumatla, cəhalətlə əlaqədar olan ənənələri kəskin tənqid edir.

“Kamran” (1931) pyesinin mövzusu İran həyatından alınmışdır. Yazıçı, hələ XX əsrin əvvəllərində bir parça çörək üçün neft Bakısına gələn on minlərlə İran əməkçilərinin ağır zəhmətlə qəpik-quruş qazanıb, sonra da geri dönüb, qazandıqlarını, kor-koranə din dəllallarına yedirtdiklərini görürdü. Dini əldə quldurluq silahına çevirib Quran adından fitvalar verən müctəhidlərin ifşası pyesdə əsas xətlərdən biridir. Pyesdəki əhvalatların hamısı Kamran obrazı ilə əlaqədardır. Kamran obrazını biz “Odabaşının hekayəsi” ndən Fərman adı ilə tanıyırıq. O, varlı tacir Hacı Kamyabın qardaşı baqqal İbrahimin oğludur. Fərman hekayədə aciz, hər zülmə boyun əyən, sevgilisi Gövhərtacdan əli çıxdıqdan sonra yeganə yolu Dərvişlikdə görən, nəhayət, vərəmləyib, köhnə mühitdə məhv olan bir gəncdir. Kamran ondan tamamilə fərqlənir. Həyat, yaşadığı cəmiyyət, gördüyü haqsızlıq onu istismar dünyasına qarşı bir üsyançıya çevirir. O əvvəllər müti bir cavan olduğu halda, sonralar xalqın qanını içən müctəhid hacı mirzə əhmədağalara qarşı dərin bir qəzəblə təbliğat aparır. Kamranın sevgilisini əlindən alırlar, lakin bu acınacaqlı hadisə onu daha da fəallaşdırır. Onun şəxsi intiqamı ictimai intiqama çevrilir. İndi o, tək özünü deyil, əzab çəkən xalqı düşünür. Pyesdə Hacı Kamyab, onun arvadı Bibixatun, müctəhid Hacı Mirzə

Əhmədağa, həkimbaşı Mirzə Mehdi də öz orijinal səciyyələri ilə fərqlənirlər.

Nəsr yaradıcılığını davam və inkişaf etdirən yazıçı sovet dövründə də “Marallarım” silsiləsində hekayələr yazmışdır. Bu hekayələr mövzuca müxtəlifdir. Hekayələrin bir qismində çar hakimiyyəti dövründə yaşayan satqın, yaltaq, ikiüzlü bəylər, xanlar, hacılar, tacirlər, çinovniklər və polis məmurlarının acgözlüyü tənqid edilir (“Odabaşının hekayəsi”, “Çeşmək”, “Mirzə Səfər”, “Pristav və oğru”, “İt oyunu”, “Diş ağrısı”, “Qaban” və s.). “Mirzə Səfər” hekayəsində açıq gözlü, namuslu bir ziyalının surəti verilir. Mirzə Səfər idarədə katib vəzifəsində çalışır. Yuxarı təbəqə işçilərinin çoxu rüşvətlə baş girlədikləri halda, Mirzə Səfər insanı baş aşağı edən bu çirkin əmələ nifrət edir. Onun vəzifəsi ərizə yazmaqdır. Ərizə yazdıranın dövlətli və ya kasıb olması onu maraqlandırmır. O, az gəlirlə kifayətlənir. Mirzə Səfərin yaltaqlardan da zəhləsi gedir. Onun uşaqlarını məktəbdən çıxardırlar. Bu hadisə Mirzə Səfərə ağır təsir edirsə də, Həsən ağa kimi murdar adama baş əymir. O sınır, amma düşmən qabağında əyilmir, çünki əyilmək xasiyyəti Mirzə Səfərin təbiətinə yaddır. Tarzən Cavad (“Qoca tarzən”) və Mirzə Hüseyn (“Koroğlu”) də öz səciyyələri etibarilə Mirzə Səfəri xatırladırlar..

Yazıçını və onun əsərlərini oxuculara tanıtmaq məqsədilə kitabxanada bir sıra tədbirlər keçirmək olar. Bu məqsədlə kitabxanaçı bir neçə məktəblə sıx əməkdaşlıq edir. O şagirdləri, xüsusən də, yuxarı sinif şagirdlərini kitabxanaya cəlb etməklə Əbdürrəhim bəy Haqverdiyevin əsərləri ilə tanış edir. Kitabxanaya abunə olan şagirdlər Əbdürrəhim bəy Haqverdiyevin müxtəlif adda əsərlərini oxuyub, onun yaradıcılığı ilə yaxından tanış olurlar. Daha sonra kitabxanaçı kitabxanada bir sıra tədbirlər üçün müəyyən olunmuş tarixdə oxucuları kitabxanaya dəvət edir. Bu vaxt ərzində kitabxanaçı

yuxarı sinif şagirdləri ilə ədibin bir sıra hekayələrini səhnələşdirə bilər. Məsələn: Əbdürrəhim bəy Haqverdiyevin sevilən əsərlərindən biri olan ***"Ata və oğul" adlı hekayəsi əsasında səhnəcik hazırlaya bilərlər.***

Böyük şəxsiyyət Əbdürrəhim bəy Haqverdiyevin yubileyi ilə əlaqədar *"Əbdürrəhim bəy irsi"* adlı **sual-cavab** təşkil edilə bilər. Sual-cavab kitabxanaçı tərəfindən kitabxanada təşkil edilir. Kitabxanaçı böyük insan, vətənpərvər şəxsiyyət Əbdürrəhim bəy Haqverdiyev haqqında bir sıra əsaslı məlumatlar verir:

*Kitabxanaçı qısa məlumatdan sonra şagirdlərə sual vərəqəsini paylayır. Sualları sizə təqdim edirik.*

1. ***Sual:*** Əbdürrəhim bəy Haqverdiyev kimdir?

1. ***Cavab:*** Əbdürrəhim bəy Haqverdiyev bütün fəaliyyəti, bədii yaradıcılığı doğma xalqına əvəzsiz xidmət, vurğunluq nümunəsi olan qaynar təbli Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, tərəqqipərvər ədəbiyyatçı, dramaturq, pedaqoq, böyük mütəfəkkir, dirijor və Molla Nəsrəddinçi idi.

2. ***Sual:*** Ədibin əsərlərindən bir neçəsini sadalayın.

2. ***Cavab:*** Görkəmli mütəfəkkir Əbdürrəhim bəy Haqverdiyevin zəngin ədəbi irsindən – "Yeyərsən qaz ətini, görərsən ləzzətini", "Dağılan tifaq", "Pəri cadu", "Sağsağan", "Daşçı", "Kimdir müqəssir" və s. kimi dram əsərləri; "Mirzə Səfər", "Şeyx Şəban", "Ata və oğul", "Bomba", "Marallarım", "Ovçu Qasım", "Qəndil", "Çeşmək", "Qoca tarzən", "Diş ağrısı" və s. kimi hekayələri; eləcədə "Bizim yabılarımız", "Beş il", "Azərbaycanda teatr", "Mirzə Fətəlinin faciəsi", "Molla Nəsrəddin haqqında xatiratım", "Ədəbi dilimiz haqqında", "Müsəlmanlarda teatro" adlı məqalələr; "Qurbanəli Şərifova", "Əziz Şərifə", "Müxtəsər tərcümeyi – halım", "Nəcəf bəy Vəzirova" və s. kimi məkrubların müəllifidir.

3. **Sual:** Əbdürrəhim bəy Haqverdiyev neçənci ildə və harada anadan olmuşdur?

3. **Cavab:** Əbdürrəhim bəy Haqverdiyev 1870-ci il mayın 17-də Azərbaycanın Şuşa şəhəri yaxınlığında olan Ağbulaq kəndində anadan olmuşdur.

4. **Sual**: Bu il Əbdürrəhim bəy Haqverdiyevin neçə illik yubileyi qeyd olunur?

4. ***Cavab:*** Tanınmış ədib, nasir, yazıçı, dramaturq, pedaqoq, ədəbiyyatşünas və naşir Əbdürrəhim bəy Haqverdiyevin bu il anadan olmasının 150 illik yubileyi qeyd olunur.

5. ***Sual:*** Əbdürrəhim bəy Haqverdiyevin vətənimiz üçün daha hansı misilsiz xidmətlərini və yaradıcılığını qeyd edə bilərsiniz?

5. ***Cavab:*** 1. Ə.Haqverdiyev öz ölkəsinin və başqa xalqların tarixinə yaxşı bələd olan alim idi.

2. (1916-1917), fevral inqilabından sonra Tiflis İcraiyyə Komitəsinə və onun mərkəzi şurasına üzv seçilmişdir (1917). Həmin ilin martında Borçalı qəzasına müvəkkil təyin olunmuşdur (1918).

3. Birinci Rus Dumasının Azərbaycandan deputatı, Gürcüstan Parlamentinin deputatı olmuşdur.

4. “Leyli və Məcnun” operasının premyerasında ilk dirijor, Teatr Şurasının təsisçisi və birinci rəhbəri olmuşdur.

5. Yazıçılar İttifaqının üzvü, məşhur “Molla Nəsrədin” jurnalın baş editorlarından biridir. Bununla yanaşı realist Azərbaycan ədəbiyyatının görkəmli simalarından olan Əbdürrəhim bəy Haqverdiyev yaradıcılığa on doqquzuncu əsrin doxsanıncı illərində başlayıb. Ədəbiyyat tarixinə klassik hekayələri və faciə əsərləri ilə daxil olub.

6. Görkəmli teatr təşkilatçısı idi və Azərbaycanın ilk peşəkar rejissoru sayılır. Dili son dərəcə zəngindir, xalq danışığına, folklor ədəbiyyatına yaxındır.

***6. Sual:*** Əbdürrəhim bəy Haqverdiyev öz əsərlərini hansı jurnalda çap etdirmişdir?

***6. Cavab:*** Ədib öz əsərlərini dövrünün ayinəsi olan "Molla Nəsrəddin" jurnalında dərc edirdi.

***7. Sual:*** Əbdürrəhim bəy Haqverdiyev öz əsərlərini "Molla Nəsrəddin" jurnalında hansı imza ilə çap etdirirdi?

***7. Cavab:*** Əbdürrəhim bəy Haqverdiyev öz əsərlərini 1907-ci ildə "Ceyranəli", "Xortdan", "Həkimi-nuni-səqir", "Lağlağı", "Mozalan", "Süpürgəsaqqal" və s. imzalarla "Molla Nəsrəddin" jurnalının bir sıra nömrələrində hekayə, felyeton çap etdirmişdir.

*Tədbirin sonunda iştirakçılar ədibin "Ac hariflər" (film, 1993) (tammetrajlı film-tamaşa) (AzTV) - əsərinin tamaşasına baxa bilərlər.*

Əbdürrəhim bəy Haqverdiyevin həyat fəaliyyətini və eləcə də gördüyü işləri oxuculara çatdırmaq məqsədi ilə görülən tədbirlərdən biri də *"Haqverdiyev əsərlərinin rəngli çalarları"* adlı **"rəsm müsabiqəsi"** dir. Müsabiqədən əvvəl kitabxanaçı məktəblərdə olur və Əbdürrəhim bəy Haqverdiyevin fəaliyyətindən, onun qələmindən süzülən tənqid və təbliğlər haqqından danışır. Məktəblilər həmin hadisələri gözlərinin önündə canlandırır və onu fırça ilə əks etdirirlər. Rəsmlər içərisində maariflənmə, təhsil və məktəblilərlə bağlı mövzulara daha çox müraciət olunur. Qaliblər və digər iştirakçılar mükafatlandırılır.

Əbdürrəhim bəy Haqverdiyevin yaradıcılığına yaxından bələd olan məktəblilər *"Haqverdiyev qələmi"* adlı **"divar qəzeti"** tərtib edirlər. Qəzet məktəbin girişindən asılır. Qəzeti tərtib edən məktəblilər müdriyyət və müəllim kollektivi tərəfindən təqdirəlayiq qarşılanır. "Əbdürrəhim bəy

Haqverdiyev nədən və necə yazıb?" kiçik başlıqların da yer aldığı divar qəzeti aşağıdakı kimi yazılmışdır:

Tənqidçi sənətkarlığı yazıçının yaratdığı bədii həqiqətləri dolğun dəyərləndirmək, gerçəkliklə yazıçı ideyaları arasında uyarlılıq nisbətini dərindən açıqlamaq, araşdırılan əsərdə forma-məzmun qatlarına nüfuz etmək üsulu, yaradıcılıq üsulu, yaradıcılıq tərzini fərdiləşdirən meyillərin təbiətini izləmək, xarakterini aydınlaşdırmaq, millilikIə bəşərinin daxili bağlılığını kəşf etmək, anlatmaq ustalığıdır.

Bu sənət yüksək estetik səviyyə, tutarlı məntiq istəyir. Ağılla zövqün vəhdəti əzəldən tənqiddə ilkin şərt olub. Nəzəri fikir bədii düşüncə ilə burda sintezləşir, qovuşur. Tənqid çağdaş ədəbi prosesIə yanaşı ədəbiyyat tarixinə baş vurur. Təbiidir: tarixi irs təməldir, sabaha gedən yola başlanğıcdır. Mənəvi kökləri öyrənmək daha artıq aktuallıq qazanır. Bu sahədə yeni əsər yaratmaq, şübhəsiz, gərəkli işdir. Bu işin öhdəsindən lazımınca gələn ədəbi simalardan biri də Əbdürrəhim bəy Haqverdiyevdir. Əbdürrəhim bəy Haqverdiyevə ümumxalq şöhrəti və məhəbbəti qazandıran onun ölməz əsərləridir. Keçən əsrlərdən başlayaraq bu günədək insanlar onun əsərlərini maraqla mütaliə edirlər. Ədibin əsərləri ölkəmizdən kənarda da çap edilmişdir.

Ə.Haqverdiyevin realizmi klassik tənqidi realizmdir. Haqverdiyevin əsərlərində yaranmış tiplər silsiləsi köhnə dünyada yaşayan, o dövrün haqsızlıq və məhrumiyyətlərini görən, bu zülm və zorakalığa davam gətirməli olan məzlum və sıravi adamlardır. Ədib bu canlı köməksiz insan xarakterini "obyektiv", "bitərəf", biguman müşahidəçi kimi qələmə almır. Onları tənqid edərək, qırmaclayaraq ictimai dəhşətlərin səbəblərini aramağa, bunlara oxucuda etiraz, nifrət oyatmağa çalışır. Əbdürrəhim bəy Haqverdiyev sadə zəhmət adamlarının qeyrətini çəkir, halına acıyır, taleyini düşünür, bədii surətlərini

yaradırdı. Din və mövhumatın yalan, hiylə pərdəsini açan canlı həyat səhnələrində ruhani dindar möminlərin həqiqi səhnələrini göstərir. Ədibin realist nəsri hələ keçən əsrin əvvəllərində ümumi hörmət və şöhrət qazanmışdı. Onun əvvəlcə "Molla Nəsrəddin" səhifələrində, sonra dönə-dönə kitab halında nəşr olunub yayılan kiçik həcmli, ictimai məzmunlu, şirin, duzlu, yumorist hekayələri illər boyu dərs kitablarında maraqla oxunmuş, köhnə dünyaya, puç adətlərə nifrət artırmışdır. Əbdürrəhim bəy Haqverdiyevin bədii nəsrində müasirlərinin çoxundan fərqlənən üstün və məziyyətli cəhətlər çoxdur. Onun əsl qəhrəmanları şahlar, şahzadələr, vəzifə sahibləri yox, məhz sıravi, sadə adamlar, "həyatın dibində" çalışıb çabalayan, istismar, din, mövhumat məngənəsində əzilən adamlardır. Çexovun məşhur bir sözü var: Qısalıq istedadın qardaşıdır!

Əbdürrəhim bəy Haqverdiyev hekayələri məhz bu üsulla qısa, əlvan, tutarlı, canlı lövhələrlə yazılmışdır. Hər ifadə canlı bir lövhə, hər epitetdə bir xarakter oxunur. Ədibin dili, o zamankı mətbuat, səhnə dilində dəb düşən süni bəzək-düzəkdən uzaq, təmiz, sadə, canlı, şirin, əlvan Azərbaycan dilidir.

Əbdürrəhim bəy Haqverdiyevin təsvir üsulu, üslubu da çox orijinal və cazibəlidir.

Kitabxanada keçiriləcək ənənəvi tədbir forması kimi *"Əbdürrəhim bəy Haqverdiyev imzası"* adlı **kitablarının müzakirəsi** də keçirilə bilər. Oxucuların istəyini nəzərə alan kitabxanaçı oxucularla birgə Əbdürrəhim bəy Haqverdiyevin bir neçə kitabını və eləcə də "Seçilmiş əsərləri" adlı kitabını və eyni zamanda Əbdürrəhim bəy Haqverdiyev haqqında yazılmış müxtəlif adda kitabları müzakirə edə bilər.

*Kitabxanaçı:* Dəyərli oxucular, sərgimizdə yer alan ilk kitab Əbdürrəhim bəy Haqverdiyev. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı, "Lider nəşriyyat", 2005, 504 səhifədir.

XIX əsrin sonlarında Azərbaycan dramaturgiyasında maarifçiliyin növbəti mərhələsini başa çatdıran Əbdürrəhim bəy Haqverdiyev realist ədəbiyyatımızın və mədəniyyətimizin inkişafında əhəmiyyətli xidmət göstərmişdir. Onun “Dağılan tifaq” əsəri Nəcəf bəy Vəzirovun “Müsibəti Fəxrəddin” i tamamlayan və davam etdirən ikinci faciədir. Dramaturgiyamızın sonrakı mərhələsində əsasında maarifçi məfkurə dayanan belə möhtəşəm sosial faciələrə daha rast gəlinmir.

“Seçilmiş əsərləri” nin birinci cildinə ədibin dram əsərləri daxil edilmişdir. Tariximizin mühüm bir dövrünü əks etdirən bu əsərlər XX yüzilin əvvəllində Azərbaycan səhnəsində gedən axtarışları ifadə edən səciyyəvi bədii nümunələridir.

Sərgimizdə yer alan ikinci kitab “Xortdanın cəhənnəm məktubları” adlanır. Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı Bakı-1961. XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Əbdürrəhim bəy Haqverdiyev (1870-1933) “Cəhənnəm məktubları” əsərinin ilk variantını 1907-ci ildə “Xortdan” imzası ilə “Molla Nəsrəddin” jurnalının bir sıra nömrələrində çap etdirmişdir. İnqilabdan sonra isə müəllif, əsəri yenidən işləyib “Odabaşının hekayəsi” povestini sonradan ora əlavə etmişdir. “Xortdanın cəhənnəm məktubları” 1930-cu ildə ilk dəfə kitab şəklində nəşr olunmuşdur.

Mövhumat və cəhalət qalıqlarının tənqidinə həsr olunmuş bu kitabı oxuyarkən keçmiş Azərbaycan bəyləri, mülkədarları, tacirləri, pristavları, axundları, mollaları, qoçuları və başqa istismarçıları sizin gözləriniz qarşısında canlanacaqdır.

Sərgimizdə yer alan növbəti kitab Əbdürrəhim bəy Haqverdiyevin “Hekayələr” adlı kitabıdır. Gənclik. Bakı. 1974.

Sərgimizdə yer alan növbəti kitab Əbdürrəhim bəy Haqverdiyevin “Marallarım” adlı kitabıdır. Haqverdiyev Ə. Marallarım, 40 səh. Bakı, Turan-2001.

Kitaba Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, tərəqqipərvər ədəbiyyatçı, dramaturq, pedaqoq Əbdürrəhim bəy Haqverdiyevin 1910-1913-cü illərdə “Molla Nəsrəddin” jurnalında “Ceyranəli” imzası ilə çap etdirdiyi “Marallarım” adlı hekayələr toplusu daxil edilmişdir. Ə.Haqverdiyev bu hekayələrində cəmiyyəti ətalətə, uçuruma sürükləyən yalançı din xadimlərini, riyakar mollaları, acgöz seyidləri, qondarma intelligentləri “marallarım” obrazında ümumiləşdirərək kəskin gülüşlə ifşa edir, iç üzlərini özünəməxsus incəlik və ustalıqla açaraq tənqid atəşinə tutur.

Sərgimizdə yer alan növbəti kitab Əbdürrəhim bəy Haqverdiyevin “Seçmə hekayələr” Bakı, “Altun kitab”, 2015, 224 səh.

Kitabda görkəmli mütəfəkkir Əbdürrəhim bəy Haqverdiyevin zəngin ədəbi irsindən seçmələr – “Mirzə Səfər”, “Şeyx Şaban”, “Ata və oğul”, “Bomba”, “Marallarım” “Ovçu Qasım”, “Qəndil”, “Çeşmək”, “Qoca tarzən”, “Diş ağrısı” və s. kimi hekayələr toplanmışdır. Hekayələrin əsas mövzularından biri mövhumatın tənqididir. Ədib hekayələrində burjua-mülkədar cəmiyyətinin ayrı-ayrı nöqsanlarını, ictimai xəstəliklərini tənqid edərkən gülüşdən, onun müxtəlif şəkillərindən bacarıqla istifadə edir. Buradakı gülüşdə istehza daha çox nəzərə çarpır. Ümumiyyətlə, istehza Ə.Haqverdiyev gülüşündə, tənqid üslunda mühüm yer tutur.

Sərgimizdə yer alan növbəti kitab Əbdürrəhim bəy Haqverdiyevin “Hekayələr” adlı kitabıdır. Kitab 2018-ci ildə Qanun Nəşriyyatı tərəfindən dərc olunub.

*Tədbirin sonunda iştirakçılar ədibin bir neçə adı gedən əsərini səhnələşdirə bilərlər.*

Bununla yanaşı Əbdürrəhim bəy Haqverdiyev yaradıcılığını məktəblilərə tanıtmaq və çatdırmaq məqsədilə görülən müsabiqələrdən biri də *"Əsrinin söz və fikir ustadı."* adlı **"inşa yazı müsabiqəsi"**-dir. Müsabiqənin əsas mövzusu böyük ədib, vətənpərvər təsisçi Əbdürrəhim bəy Haqverdiyev və onun əsərləridir. Ədibin əsərləri, maarifçilik ideyası, novatorluğunun həyatımızdakı rolu və onun ədəbiyyatımızda olan misilsiz rolu təhlil edilir. Maraqlı fikirləri ilə fərqlənən məktəblilər öz yazılarını münsiflər heyətinə təhvil verirlər. Məzmunu və aktuallığı ilə fərqlənən iştirakçı mükafatlandırılır.

Azərbaycanlı yazıçı, dramaturq, pedaqoq, ədəbiyyatşünas, teatr xadimi və ictimai-siyasi xadim, klassik Azərbaycan ədəbiyyatının korifeyi Əbdürrəhim bəy Haqverdiyevi tanıtmaq və yad etmək məqsədi ilə keçirilə biləcək tədbirlərdən biri ədəbi-bədii gecədir. "Hürriyyət və demokratiya alimi" adlı gecə keçirilən zalda Əbdürrəhim bəy Haqverdiyevin rəsmləri, onun öz fikirləri və digər görkəmli şəxsiyyətlərin ədib haqqında söylədikləri yer alır. Gecədə şair və yazıçılar, sənət-söz adamları, alimlər, tədqiqatçı, ədibşünasdlar və tarixçilər iştirak edirlər.

***I aparıcı:*** Xatirəsinə toplaşdığımız Ə.Haqverdiyev dolğun məzmunlu dram əsərli və hekayələri ilə şöhrətlənmiş, realist ədəbiyyatımızın inkişafında mühüm rol oynamışdır. Humanist sənətkar yaşadığı dövrün mütərəqqi ideyalarından ilham almış, inqilabi-demokratik "Molla Nəsrəddin" jurnalındakı yumorist-satirik hekayələri, təsirli publisist əsərləri ilə geniş xalq kütlələrinin məhəbbətini qazanmışdır. Əbdürrəhim bəy Haqverdiyev milli Azərbaycan teatrının qüvvətlənməsi yolunda yorulmadan çalışmışdır.

Əbdürrəhim bəy Haqverdiyev 1892-ci ildə ilk səhnə əsərini – "Yeyərsən qaz ətini, görərsən ləzzətini" məzhəkəsini, 1896-cı ildə isə məşhur "Dağılan tifaq" faciəsini yazır. Bu

əsərində o, Nəcəf bəyin simasında əyyaş, qumarbaz, əməyə xor baxan mülkədarları kəskin tənqid edir. Dramaturq göstərir ki, Nəcəf bəylər ifşa olunmalıdır. Ə.Haqverdiyevin ustalığı ondadır ki, o, mülkədarların eybəcər sifətlərini inandırıcı bir şəkildə göstərir. Axı Əbdürrəhim bəy Haqverdiyev böyük realist yazıçıdır. O, Şuşada yaşayarkən Nəcəf bəy kimi mülkədarları görmüş və dərin müşahidə aparmışdır. "Dağılan tifaq" ın finalı, yəni son pərdəsi çox təsirlidir. Budur, Nəcəf bəy dilənçi kökündədir. Sərgərdan kimi gəzib-dolaşır. Min-bir əzab-əziyyət verdiyi arvadı Sona xanımın kölgəsi gözünə görünür. Təmiz ürəkli, eyni zamanda avam bir qadın olan Sona xanım sanki ölməmişdir. O, intiqamçı kimi Nəcəf bəylə üz-üzə durub oğlunu, tar-mar olmuş evini ondan istəyir. İldırım çaxır, Nəcəf bəyi külə döndərir. Dramaturq belə bir ədəbi üsuldan istifadə edərək sanki deyir: Nəcəf bəylər elmə, mədəniyyətə yabançı idilər, boş şöhrət düşkünü idilər. Bunun da nəticəsi belə olmalı idi.

***II aparıcı:*** Məlumdur ki, şifahi xalq ədəbiyyatı görkəmli sənətkarlarımızın hər zaman bəhrələndikləri tükənməz mənbələrdən biri olmuşdur. Elə böyük sənətkar tapmaq olmaz ki, o, xalq yaradıcılığına söykənməsin, ondan səmərəli, həm də yaradıcı surətdə istifadə etməsin. Bu baxımdan Əbdürrəhim bəy Haqverdiyev yaradıcılığı çox maraqlıdır. Böyük rus dramaturqu A.H. Ostrovski bədii yaradıcılığın sirlərindən bəhs edərək deyirdi: "xalq yazıçısı olmaq üçün vətənə məhəbbət bəsləmək azdır, çünki bu məhəbbət yazıçıya enerji, hiss verir, məzmun vermir; odur ki, vətəni sevməklə bərabər xalqı yaxşı bilmək, onunla yaxınlaşmaq, ona dərindən aşina olmaq lazımdır. Bədii istedad üçün ən gözəl məktəb öz xalqının həyatını öyrənməkdir. Xalqın həyatını bədii şəkildə əks etmək isə yaradıcılıq fəaliyyəti üçün ən gözəl sahədir.

Ruhən xalqa yaxın olan, xalq həyatını, məişətini dərindən bilən Ə.Haqverdiyev də bütün hekayə və dramlarında, publisist

yazılarında şifahi xalq yaradıcılığından, onun müxtəlif məna çalarlarından bol-bol istifadə etmişdir.

***I aparıcı:*** Əbdürrəhim bəy Haqverdiyevin folklor motivlərinə, eləcə də mütərəqqi ədəbi irsə müraciəti zamanın tələb və ehtiyacları ilə bilavasitə bağlı idi. Ədib xalq rəvayətlərindən bəhrələnərək yaşadığı dövrün, mühitin haqsızlıqlarını məharətlə ifşa etmidir. Zəmanəni haqsızlıqlarını, despotizmini çox orijinal vasitələrlə tənqid edən ədib sözün həqiqi mənasında ölməz sənət abidəsi yaratmışdır.

1936-1941-ci illərdə professor Mir Cəlalın müqəddimə, tərtib və ya redaktəsi ilə buraxılan, şərti olaraq "ilk nəşr" hesab etdiyimiz əsərlər külliyatı Ə.Haqverdiyevin zəngin ədəbi-irsinin toplanması, tərtib və nəşri tarixində atılmış mühüm addım kimi qiymətləndirilməlidir. Yazıçı-alim kimi Mir Cəlal öz sələfinin – Əbdürrəhim bəy Haqverdiyevin yaradıcılığına dərindən bələd olmaqla yanaşı, həm də ədibin ən yaxşı tədqiqatçılarındandır. O, Haqverdiyev irsinin həm nəsri, həm də öyrənilməsi sahəsində ardıcıl və səmərəli fəaliyyət göstərmişdir.

***II aparıcı:*** Əbdürrəhim bəy Haqverdiyev mənalı və şərəfli sənətkar ömrü yaşamış, 40 ildən artıq bir müddətdə zəngin ədəbi irs qoyub getmişdir. O, bütün şüurlu həyatını doğma xalqının azadlığı uğrunda mübarizəyə həsr etmiş, alim və ictimai xadim kimi Azərbaycan ədəbiyyatı və mədəniyyətinin tərəqqisində müstəsna rol oynamışdır.

Əbdürrəhim bəy Haqverdiyevin vəfatından sonra onun ədəbi irsini toplamaq, nəşr edib geniş oxucu kütləsinə çatdırmaq, həyat və yaradıcılığını araşdırıb öyrənmək mühüm bir vəzifə kimi ədəbiyyatşünaslıq elmimizin qarşısında dayandı. Hələ ədibin öz sağlığından başlanan toplama və nəşr etmə işi müəllifin vəfatından sonra genişləndi, Əbdürrəhim bəy Haqverdiyev əsərlərinin nəşri daha da geniş vüsət aldı.

## Ədəbiyyat siyahısı

***Əsərləri***
***Kitablar***

Seçilmiş əsərləri : 2 cilddə. - Bakı : Lider nəşriyyatı, 2005. - 504 s. - (Klassik Azərbaycan Ədəbiyyatı).

C. 1. – 504 s.
C. 2. – 504 s.

Seçilmiş əsərləri. - Bakı : Çaşıoğlu, 2006. - 296 s. : portr. - (Azərbaycan Ədəbiyyatı).

Ac həriflər : dram əsərləri. – Bakı : TEAS Press, 2018. – 416 s.

Bomba. - Bakı : Renessans-A, 2018. - 8 s. : rəngli şək., rəngli il. - (Klassiklərimizdən nümunələr).

Hekayələr. - Bakı : Qanun, 2017. - 256 s. - (Dünya uşaq ədəbiyyatı).

Marallarım. - Bakı : Turan Nəşrlər Evi, 2001. - 40 s.

Ovçu Qasım : hekayə. - Bakı : Renessans-A, 2017. - 12 s. : rəngli il.

Seçmə hekayələr. - Bakı : Altun Kitab, 2015. - 224 s. - (Hekayə ustaları).

***Kitablarda***

Ağa Məhəmməd şah Qacar // Azərbaycan dramaturgiyası antologiyası. 4 cilddə. – Bakı : Şərq-Qərb, 2007. – C.1. - S.186-131.

Ata və oğul ; Şeyx Şəban ; Mirzə Səfər : hekayələr // Azərbaycan nəsri antologiyası. 5 cilddə. – Bakı : Şərq-Qərb, 2006. – C. 2 : XX əsrin əvvəlləri. – S. 63-101. - (Müasir Azərbaycan ədəbiyyatı).

Mirzə Səfər ; Ayın şahidliyi ; Şeyx Şəban : hekayələr // XIX-XX əsr Azərbaycan ədəbiyyatı. 2 cilddə.. – Bakı : Nurlar, NPM, 2012. – C. 2 : nəsr. – S. 158-184.

Ovçu Qasım ; Hacıleylək ; Sərçə ; Ata və Oğul : hekayələr // Azərbaycan uşaq ədəbiyyatı antologiyası. 3 cilddə. - Bakı : Öndər, 2005. – C. 3. – S.31-50.

Yeyərsən qaz ətini, görərsən ləzzətini ; Dağılan tifaq ; Ağa Məhəmməd şah Qacar // XIX-XX əsr Azərbaycan ədəbiyyatı : dramaturgiya : Ali məktəblərin filologiya fakültələrinin tələbələri üçün dərs vəsaiti. - Bakı : Nurlar, 2014. – S. 548 – 599.

***Elektron resurslar***

Seçilmiş əsərləri [Elektron resurs]. - Elektron mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : portr. ; 12 sm. - (Nizami layihəsi). - (qutuda).

Bomba ; Mirzə Səfər ; Şikayət və b. hekayələr [səs yazısı] / oxuyur Z. Ağahüseynqızı. - Bakı : AzKC 2 saylı TİM-in səsyazma studiyası, 2002. - 1 ак. - (Danışan kitabxana silsiləsindən). - "Avrasiya" Fondunun maliyyə dəstəyilə hazırlanmışdır.

**Şəbih : hekayə** [səs yazısı] / oxuyur Z. Ağahüseynqızı. - Bakı : AzKC 2 saylı TİM-in səsyazma studiyası, 2002. - 1 ак. - (Danışan kitabxana silsiləsindən). - "Avrasiya" Fondunun maliyyə dəstəyilə hazırlanmışdır.

***Haqqında***

Kərimov İ. Ə. Haqverdiyev və teatr. – Bakı : Elm, 2016. – S. 206.

***Kitablarda***

**Əbdürrəhim bəy Haqverdiyev** (1870-1933) // Müasir Azərbaycan ədəbiyyatı : dərslik : - Bakı : Bakı Universiteti nəşriyyatı, 2007. - C.1. - S. 70-71.

**Əhmədov B.** Əbdürrəhim bəy Haqverdiyev // XX əsr Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə : dərslik. - Bakı : Elm və təhsil, 2011. - C. 1. - S. 301-317.

**Əlioğlu M.** Atalar və oğullar : klassik dramaturgiyaya baxış // Darıxan adamlar. 2 cilddə. - Bakı : Təhsil, 2009. – C.1. - S. 535-772.

**Əlioğlu M.** Haqverdiyevin idealları : Anadan olmasının 100 illiyi münasibətilə // Darıxan adamlar. 2 cilddə. - Bakı : Təhsil, 2009. – C.1. - S. 360-366.

**Əlioğlu M.** Klassik nəsrimizin bəzi ənənələri // Darıxan adamlar. 2 cilddə. - Bakı : Təhsil, 2009. – C.1. - S. 284-309.

**Kərimov İ.** Ə.Haqverdiyevin "Pəri cadu" əsərinin tamaşaları // Azərbaycan teatr tarixi. - Bakı : Elm, 2008. - S. 436-438.

**Kərimov İ.** Ə. Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar" əsərinin tamaşaları // Azərbaycan teatr tarixi. - Bakı : Elm, 2008. - S. 417-431.

**Mustafayeva X.** Əbdürrəhim bəy Haqaverdiyev (1876-1933) // Azərbaycan uşaq ədəbiyyatı : Ali və orta ixtisas məktəbləri üçün dərs vəsaiti. – Bakı : Elm, 2011. – S. 127-130.

***Dövri mətbuat***

**Əbdürrəhim bəy Haqverdiyevin** 150 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (31 yanvar 2020-ci il) // Azərbaycan. - 2020. - 1 fevral. - № 21. - S. 1 ; Ədəbiyyat qəzeti. - 2020. - 1 fevral. - № 4. - S. 2.

**Abbaslı T.** Ədəbi-irfani Bəy... : oxumayanlarından çox, oxuyanlarının boynunda haqqı olan Əbdürrəhim bəy Haqverdiyev! // Mədəniyyət. - 2016. - 18 may. - № 38. - S. 15.

**Babayev B.** Haqverdiyev gülür, güldürür : Ə.Haqverdiyevin felyeton yaradıcılığından : Mətbuat tariximizdən // Azərbaycan. - 2019. - № 7/8. - S. 174-179.

**Dünyamin qızı Q.** Anadangəlmə mollanəsrəddinçi : Şura hökuməti Əbdürrəhim bəy Haqverdiyevə də ögey münasibət bəsləyirdi // Kaspi. - 2016. - № 48.

**Əbdürrəhim bəy Haqverdiyevin** 150 illiyi UNESKO xəttilə qeyd ediləcək // 525-ci qəzet. - 2019. - 20 noyabr. - № 153. - S. 12.

**Hacıyev Q.** Təhsil, elm və mədəniyyətin beşiyi : tarix olduğu kimi // Azərbaycan. - 2015. - 12 fevral. - № 33. - S. 11.

**Kamal R.** "Əbdürrəhim bəyin cənnət səyahəti. Tiflis" // Ədəbiyyat qəzeti. - 2019. - 16 fevral. - № 6. - S. 23.

**Kamal R.** Əbdürrəhim bəy və pasport // Ədəbiyyat qəzeti. - 2018. - 23 iyun. - № 24. - S. 25.

**Kamal R.** Əbdürrəhim bəyin "qəstin"ləri : professor Kamran Məmmədovun unudulmaz xatirəsinə // Ədəbiyyat qəzeti. - 2018. - 13 yanvar. - № 1. - S. 30.

**Kamal R.** Stomatoloji fantaziya : Əbdürrəhim bəy Haqverdiyevin "Diş ağrısı" hekayəsi // Ədəbiyyat qəzeti. - 2015. - 13 iyun. - № 38/40. - S. 11.

**Mustafa N.** Səfir Əbdürrəhim bəy Haqverdiyev Ermənistan hökumətinin sifarişi ilə qarət edilmişdir : Azərbaycan Xalq Cümhuriyyəti // Azərbaycan. - 2018. - 4 may. - № 100. - S. 10.

**Osmanoğlu M.** Ağrı : [yazıçı, ədəbiyyatşünas Əbdürrəhim bəy Haqverdiyev haqqında] // Ədəbiyyat qəzeti. - 2016. - 29 oktyabr. - № 40. - S. 10-11.

**Salamoğlu T.** Türk qanlı sənətkarın Avropa qiyafəli, müsəlman etiqadlı əsərləri : Ə.Haqverdiyev dramaturgiyası ədəbiyyatşünaslıqda: polemika üçün meydan varmı? // Azərbaycan. - 2018. - № 1. - S. 166-181.

**Vahid M.** Biz nəyə gülürük? : Əbdürrəhim bəy Haqverdiyevin hekayələrində bədii gülüş // Ədəbiyyat qəzeti. - 2018. - 7 aprel. - № 12. - S. 14-15. ; 14 aprel. - № 13. - S.28-29.

**Vahid M.** Əbdürrəhim bəy Haqverdiyevin hekayələrində qadına münasibət : qadın və cəmiyyət // İşıq. - 2018. - № 2(94). - S. 48-52.

# Böyük ədibin böyük yaradıcılığı
**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 05
Çapa imzalanmışdır: 19.02.2020
Tirajı:100
Pulsuz